UOT 343.1

# DÖVLƏT İTTİHAMININ MÜDAFİƏSİ ZAMANI YARANAN HÜQUQ MÜNASİBƏTLƏRİNİN XÜSUSİYYƏTLƏRİ

**X.R.VƏLİYEV**
***Bakı Dövlət Universiteti***
***veliyevxr@mail.ru***

*Məqalədə dövlət ittihamının müdafiəsi zamanı yaranan hüquq münasibətlərinin xüsusiyyətləri geniş təhlil edilir. Bu hüquq münasibətləri onların subyekti, obyekti və məzmunu vasitəsilə xarakterizə edilir. Xüsusi metod vasitəsilə müəllif digər tədqiqatçılar tərəfindən irəli sürülən müddəaları təhlil edir və iş üzrə bir sıra mühüm nəticələr irəli sürür.*

**Açar sözlər:** cinayət prosesi, dövlət ittihamı, prokuror, hüquq münasibətləri, məzmun

Dövlət ittihamının hüquqi tənzimlənməsini təmin etmək, onun effektivlik dərəcəsini qiymətləndirmək və təkmilləşdirmək üçün bu fəaliyyət zamanı yaranan hüquq münasibətlərini diqqətdən kənarda qoymaq olmaz.

Ümumi hüquq nəzəriyyəsində hüquq münasibətləri dedikdə, hüquq normaları ilə tənzim edilən ictimai münasibətlər başa düşülür. Hüquq münasibətləri insanlar arasında subyektiv hüquqlar və vəzifələr əsasında qurulan əlaqədir. Tədqiq olunan mövzuya uyğun olaraq bizim araşdırmanın predmetinə dövlət ittihamının həyata keçirilməsi üzrə fəaliyyət nəticəsində yaranan bütün əlaqələrin məcmuyu daxildir. Bu əlaqələrin məcmusunu yalnız cinayət mühakimə icraatının hüdudları çərçivəsinə salmaq doğru deyil. Belə ki, prokurorun dövlət ittihamını müdafiə edərkən daxil olduğu hüquq münasibətləri cinayət mühakimə icraatı ilə əlaqədar olsa da, bu münasibətlərin heç də hamısı cinayət-prosessual hüquq münasibətləri deyildir. Bu onunla bağlıdır ki, prokuror öz cinayət-prosessual fəaliyyəti zamanı yalnız cinayət prosesinin iştirakçıları ilə deyil, digər şəxslərlə də qarşılıqlı əlaqədə fəaliyyət göstərir. Bu, xüsusilə də prokurorla yuxarı prokuror arasında yaranan münasibətlərdə özünü büruzə verir. Belə ki, yuxarı prokuror aşağı prokuroru cinayət prosesində xidməti səlahiyyətlərini lazımi qaydada həyata keçirmədiyinə görə intizam məsuliyyətinə cəlb edə bilər, amma bu münasibətlər prokurorun cinayət prosesində iştirakı ilə əlaqədar yaransa da cinayət-prosessual hüquq normaları ilə tənzim edilmir və belə münasibətlərə prosessual hüquq münasibətləri kimi baxmaq olmaz.

Dövlət ittihamının müdafiəsi üzrə fəaliyyətlə əlaqədar olaraq prokurorun

cinayət mühakimə icraatının digər iştirakçıları ilə daxil olduğu hüquq münasibətləri cinayət-prosessual hüquq münasibətlərinin bütün xüsusiyyətlərinə malik olur: 1) prokurorun cinayət-prosessual fəaliyyəti nəticəsində yaranan münasibətlər hər zaman onunla digər vəzifəli və ya fiziki şəxslər arasında yaranır və ictimai münasibətlərin bir növü kimi çıxış edir; 2) bu münasibətlər yalnız hüquq normaları əsasında yaranır, dəyişir və ya xitam olunur; 3) prokuror hüquq münasibətinin tərəfi olduğuna görə konkret hallarda ya hüququ, yaxud da vəzifəsi olan tərəf kimi çıxış edir. Bu hüquq münasibətlərində hər zaman prokurorun müvafiq hüququna uyğun gələn vəzifəyə malik olan və ya prokurorun müvafiq vəzifəsinə uyğun gələn hüquqa malik olan qarşı tərəf mövcud olur; 4) bu münasibətlər iradəli xarakter daşıyır. Bu, o deməkdir ki, hüquq münasibətinin yaranması üçün təkcə həmin münasibəti tənzim edən normanın olması kifayət deyildir və münasibətin meydana çıxması üçün onun subyektlərinin iradə ifadəsi tələb olunur.

Yuxarıda hüquq münasibətlərinə xas olan ümumi cəhətləri sadaladıq. Yalnız qeyd etmək lazımdır ki, dövlət ittihamçısının cinayət mühakimə icraatında iştirakı ilə əlaqədar yaranan hüquq münasibətləri cinayət-prosessual xarakterli olduğuna görə, bu münasibətlər öz xüsusi cəhətləri ilə də seçilir.

Bu münasibətlərin xüsusiyyətlərindən biri onların ictimai əsaslara malik olmasıdır. Belə ki, bu münasibətlər dövlət ittihamçısının dövlət və ictimai maraqlar naminə həyata keçirdiyi prosessual fəaliyyət nəticəsində yaranır. Bu münasibətlərin digər xüsusiyyəti onların yaranma əsaslarıdır. Belə ki, prokuror və cinayət prosesinin digər iştirakçıları arasında hüquq münasibətləri hüquqi faktlar əsasında, yəni vəzifəli və fiziki şəxslərin hərəkəti və hərəkətsizliyi nəticəsində yaranır.

Prosessual hüquq münasibətlərinin daha bir xüsusiyyəti kimi bəzi müəlliflər onların hakimiyyət xarakterli olmasını göstərirlər. Y.Q.Lukyanova qeyd edir ki, prosessual hüquq münasibətləri üfüqi subordinasiya başlanğıcları əsasında qurulur. Belə ki, bu münasibətlərin bir tərəfində hər zaman hakimiyyət orqanı, yəni məhkəmə və ya digər tərəfə münasibətdə hakimiyyət səlahiyyətləri verilmiş digər orqan durur (6, 210). Lakin görünür ki, müəllif burada mülki-prosessual hüquq münasibətləri modelini cinayət mühakimə icraatına da tətbiq etməyə çalışır. Bu meyli müəllifin sonrakı fikirlərində də aşkar hiss etmək olur. Belə ki, Y.Q.Lukyanovaya görə, prosessual münasibətlərin hakimiyyət xarakterli olması bu münasibətlərdə liderlik edən məcburi subyektin iştirakını qaçılmaz edir. Lider subyekt qismində isə müəllif məhkəməni qəbul edir. Ədəbiyyatda bu mövqenin çoxsaylı tərəfdarına rast gəlmək olar. Məsələn, B.A.Qalkin məhz cinayət-prosessual hüquq münasibətlərinin əlamətlərini sadalayarkən tərəf qismində çıxış edən bir neçə subyektdən birinin hər zaman dövlət orqanı olmasını bu münasibətlərin xüsusiyyəti kimi qeyd edir (2, 72).

Lakin fikrimizcə, belə yanaşma Azərbaycan Respublikasının müasir cinayət mühakimə icraatı konsepsiyası üçün qəbuledilməzdir. Cinayət mühakimə icraatının çəkişmə prinsipi əsasında həyata keçirilməsinin qanunda təsbit

edilməsindən sonra müdafiəçinin prokurorla daxil olduğu bütün hüquq münasibətlərini hakimiyyət xarakterli hüquq münasibətləri adlandırmaq doğru olmazdı. Hüquq münasibətinin tərəfləri kimi «prokuror – müdafiəçi» kombinasiyasında prokuror dövlət orqanı kimi çıxış etsə də, məhkəmə mərhələlərində o, müdafiəçiyə münasibətdə hakimiyyət nümayəndəsi qismində deyil, müdafiəçi ilə bərabər hüquqi imkanlara malik olan çəkişmə prosesinin iştirakçısı qismində çıxış edir. Bununla yanaşı, cinayət prosesinin digər mərhələlərində, xüsusilə məhkəməyədək icraat gedişində prokurorun cinayət təqibi üzrə fəaliyyəti zamanı iştirakçısı olduğu hüquq münasibətlərinin böyük qismi hakimiyyət xarakterli münasibətlər olur.

Cinayət-prosessual münasibətlərin daha bir xüsusiyyəti onların yalnız hüquq münasibətləri formasında yaranması və mövcudluğudur. Prosessual münasibətlər prosedur xarakterli münasibətlər olub, hüquqi anomaliyanın həllinə yönəlir və həmişə prosessual hüquqla tənzim edilir (6, 209).

Dövlət ittihamının müdafiəsi zamanı yaranan ictimai münasibətlərin yalnız hüquq normaları ilə tənzim edilməsi cinayət mühakimə icraatı zamanı insan və vətəndaşın hüquq və azadlıqlarının əsas təminatı və onları cinayət prosesini həyata keçirən şəxslərin özbaşınalığından qorumanın ən effektiv vasitəsidir. Buraya onu da əlavə etmək istərdik ki, cinayət-prosessual hüquq münasibətlərinin reallaşdırılması üçün yalnız prosessual hüquq deyil, maddi hüquq da tam həcmdə tətbiq edilir.

Nəzəriyyədə ümumən qəbul edilmiş mövqeyə əsasən hüquq münasibətlərinin məzmununu subyektiv hüquqlar və vəzifələr təşkil edir. Bu, hüquq münasibətlərinin hüquqi məzmun adlanır. Bundan başqa hüquq münasibətlərinin maddi məzmunu da fərqləndirilir. Hüquq münasibətlərinin maddi (bilavasitə) məzmununu münasibət iştirakçılarının faktiki davranışı təşkil edir. Hüquq münasibətlərində hüququn məzmunu formaya keçir və hüquq münasibətlərinin bilavasitə məzmununu müəyyən hüquqlara malik olan və vəzifələr daşıyan münasibət subyektlərinin davranışı təşkil edir (8, 117). Hüquq münasibətlərinin məzmunu dedikdə, həmin münasibət subyektlərinin bir-biri ilə hər cür qarşılıqlı əlaqəsi deyil, yalnız obyektiv hüququn norması ilə müəyyən edilmiş qaydada həyata keçirilən, qanunla nəzərdə tutulmuş və hüquqi əhəmiyyətli fəaliyyət başa düşülməlidir (3, 82). Ədəbiyyatda cinayət-prosessual hüquq münasibətlərinin məzmununun izahını «məzmun» və «forma» kimi fəlsəfi kateqoriyalar vasitəsilə vermək cəhdlərinə də rast gəlmək olar. Belə yanaşma zamanı cinayət-prosessual hüquq münasibətlərinin məzmununu – hərəkətlər, formasını – hüquq və vəzifələr ifadə edir (1, 144).

Beləliklə, dövlət ittihamının müdafiəsi zamanı yaranan hüquq münasibətlərinin məzmunu dedikdə, hüquq norması ilə müəyyən edilmiş səlahiyyətlər çərçivəsində dövlət ittihamçısının cinayət mühakimə icraatının digər subyektləri ilə faktiki qarşılıqlı əlaqələri başa düşülməlidir.

Bu hüquq münasibətlərinin məzmununu tam mənada açmaq üçün prokurorun prosessual səlahiyyətləri, yəni onun cinayət mühakimə icraatında malik

olduğu hüquqlar və daşıdığı vəzifələrin həcmi barədə aydın təsəvvürə malik olmaq zəruridir. Prokuror səlahiyyətlərinin məzmunu və həcmi onun həyata keçirdiyi funksiyaların xarakterindən asılıdır. Cinayət mühakimə icraatında prokurorun iki əsas funksiyası var: ibtidai araşdırmaya prosessual rəhbərlik (nəzarət) və cinayət təqibi (ittiham). İbtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirərkən prokurorun daxil olduğu hüquq münasibətlərində onun səlahiyyətləri hakimiyyət və sərəncamverici xarakterli olur. Lakin məhkəmə mərhələsində prokurorun səlahiyyətlərinin xarakteri dəyişir. Çünki məhkəmə fəaliyyəti prokuror nəzarətinin predmetinə daxil deyildir və bu mərhələdə prokuror müdafiə tərəfi ilə bərabər hüquqlara malik olan tərəf kimi çıxış edir. Prokurorun (dövlət ittihamçısının) məhkəmə mərhələsində həyata keçirdiyi hüquqlara nəzər saldıqda, onların hakimiyyət və sərəncamverici xarakterli olmadığı aşkar görünür. Araşdırılan hüquq münasibətlərinin prokurorun səlahiyyət dairəsi ilə bağlı olan daha bir xüsusiyyəti ondan ibarətdir ki, bəzən bu səlahiyyətlər prokurorun hüquq və vəzifələrinin bir-biri ilə «qarışması» nəticəsində yaranır. Lakin bu o demək deyildir ki, prokurorun hüququ eyni zamanda onun vəzifəsi kimi də çıxış edir. Nəzəriyyədə hüquq – şəxs üçün qanunla müəyyən edilən həddə və növdə mümkün olan və ya icazə verilən davranış imkanı, vəzifə – tələb olunan və ya məcburi davranış növüdür. Hüquq imkan, vəzifə isə zərurət ifadə edir. Bu səbəbdən davranış imkanına həm də tələb olunan davranış kimi baxmaq olmaz (7, 55).

Cinayət-prosessual hüquq münasibətlərinin obyekti qismində nələrin çıxış etməsi məsələsi nəzəriyyədə mübahisəli olaraq qalır. Fikrimizcə, bu məsələ ilə əlaqədar irəli sürülmüş çoxsaylı fikirlər arasında belə münasibətlərin ümumi və xüsusi obyektlərinin fərqləndirilməli olması ideyası daha doğrudur. Belə ki, bu hüquq münasibətlərinin ümumi obyektinin müəyyən edilməsi onların ictimai təbiəti və prokurorun cinayət mühakimə icraatındakı fəaliyyəti barədə təsəvvür yaratmağa imkan verir. Prokuror tərəfindən cinayət təqibinin həyata keçirilməsi zamanı yaranan hüquq münasibətlərinin ümumi predmeti cinayət mühakimə icraatının iştirakçılarının hüquq və azadlıqları, dövlətin və cəmiyyətin qanunla mühafizə olunan maraqlarıdır (5, 178).

Hüquq münasibətlərin xüsusi obyektinə gəlincə isə fikrimizcə, V.Q.Dayev və M.N.Marşunovun təklif etdiyi anlayış daha uğurlu verilmişdir: «hüquq münasibətlərinin xüsusi obyekti – hər bir konkret hüquq münasibətinin iştirakçılarının arzu olunan davranışıdır» (4, 71).

## ƏDƏBİYYAT


1. Божьев В.П. Уголовно-процессуальные правоотношения. М.: Юрид. лит. 1975, 176 с.
2. Галкин Б.А. Советский уголовно-процессуальный закон. М.: Госюриздат, 1962, 255 с.
3. Гревцов Ю.В. Проблемы теории правового отношения. Л.: Ленинградский Университет, 1981, 83 с.
4. Даев В.Г., Маршунов М.Н. Основы теории прокурорского надзора. Ленинград: Ленинградский Университет, 1990, 136 с.
5. Королев Г.Н. Прокурорское уголовное преследование в российском уголовном

процессе. М.: Юрлитинформ, 2006, 360 с.
6. Лукьянова Е.Г. Теория процессуального права. М.: НОРМА, 2003, 240 с.
7. Чеканов В.Я. Прокурорский надзор в уголовном судопроизводстве. Саратов: 1972, 188 с.
8. Явич Л.С. Право и общественные отношения. М.: Юрид. лит., 1971, 152 с.

## ОСОБЕННОСТИ ПРАВООТНОШЕНИЙ, СОЗДАВАЕМЫХ ПРИ ПОДДЕРЖИВАНИИ ГОСУДАРСТВЕННОГО ОБВИНЕНИЯ

**Х.Р.ВЕЛИЕВ**

### РЕЗЮМЕ

В статье рассматриваются процессуальные особенности правоотношений, создаваемых при поддерживании прокурором в суде государственного обвинения. Эти правоотношения характеризуются через призму их субъектов, объектов и содержания. Путем избирательного метода, автор выбрал наиболее значимые тезисы, сформулированные другими авторами и проанализировал их в авторской интерпретации.

**Ключевые слова:** уголовный процесс, государственное обвинение, прокурор, правоотношения, содержание

## FEATURES OF LEGAL RELATIONS CREATED AT DEFENCE OF THE STATE CHARGE

**Kh.R.VALIYEV**

### SUMMARY

The article considers remedial features of legal relations, created at defence of the state charge by the public prosecutor in court. These relations are characterised through the prism of their subjects, objects and the maintenance. By a selective method, the author has chosen the most significant theses, formulated by other authors and has analysed them in the author's interpretation.

**Key words:** criminal trial, the state charge, the public prosecutor, legal relations, the maintenance.